**Təhsil millətin gələcəyidir!**

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

2 sentyabr 2022-ci il
№34 (8992)

www.muallim.edu.az
muallim@edu.gov.az



# Romada İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

Sentyabrın 1-də Romada İtaliya-Azərbaycan Universiteti üzrə əməkdaşlıq çərçivəsinin müəyyən edilməsi, fakültə və proqramların yaradılması ilə bağlı ADA Universiteti ilə İtaliyanın beş aparıcı ali təhsil müəssisəsi - Luiss Guido Carli Universiteti, Romanın Sapienza Universiteti, Turin Politexnik Universiteti, Alma Mater Bolonya Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair imzalanmış sazişlərin mübadiləsi mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Əvvəlcə sazişlərin mübadiləsi oldu.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Luiss Guido Carli Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım Paola Severino mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Romanın Sapienza Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Romanın Sapienza Universitetinin rektoru professor xanım Antonella Polimeni mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti üzrə ADA Universiteti və Turin Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Turin Politexnik Universitetinin rektoru professor Guido Saraçço mübadilə etdilər.

"İtaliya-Azərbaycan Universiteti ilə bağlı ADA Universiteti və Alma Mater Bolonya Universiteti arasında akademik əməkdaşlığa dair Saziş"i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Alma Mater Bolonya Universitetinin İcraçı prorektoru professor xanım Simona Tondelli mübadilə etdilər.

⇨Ardı səh.2

## BU SAYIMIZDA

### Nailiyyət qazan, üstünlüklərini artır!



Müəllimlərin peşə bacarıqlarının və peşə yararlılıqlarının ölçülməsinə başlanılıb. Bu məqsədlə 3 gün - avqustun 30, 31-də və sentyabrın 1-də sertifikasiya imtahanları keçirilib. İlkin mərhələdə Elm və Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Gəncə-Daşkəsən, Quba-Xaçmaz regional təhsil idarələrinin tabeliyində olan ümumi təhsil müəssisələrində çalışan 11 mindən çox ibtidai sinif müəllimi Bakı, Sumqayıt, Gəncə şəhərləri və Xaçmaz rayonu olmaqla, ümumilikdə 8 imtahan mərkəzində imtahan verib.

səh.5

### Dünya çempionatından 2 medal



24-28 avqust 2022-ci il tarixlərində Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində cüdo idman növü üzrə yeniyetmələr arasında Dünya çempionatı keçirilib. Çempionatda Azərbaycan milli komandası 9 nəfər idmançı ilə təmsil olunub. Azərbaycan milli komandasının tərkibində yarışa qatılan "Təhsil" Respublika İdman Mərkəzinin 10 nömrəli uşaq-gənclər idman məktəbinin idmançısı Şahin Oruczadə (55 kq) gümüş, 13 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin idmançısı Nizami İmranov (60 kq) bürünc medal qazanıb.

səh.7

### Yeni Dövlət Proqramının İLKLƏRİ



Bu gənclər xaricdə təhsil alacaqlar. Söhbət "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2022-2023-cü tədris ilində xaricdə təhsil almaq hüququ qazanan ilklərimizdən gedir. Təqaüd qazanan tələbələrimiz dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil almaq imkanı qazanıblar. Onlara bu şansı dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunmuş adıçəkilən Dövlət Proqramı yaradır.

səh.8

# 2022-2023 tədris ilinin I semestri üzrə 779 tələbə təhsil krediti alıb




2022-2023-cü tədris ilinin birinci semestri üzrə təhsil tələbə kreditinə müraciətlərin qəbulu davam edir.

Bu günədək 779 tələbəyə kredit ayrılıb. Onlardan 210-u sosial, 569-u isə standart yönümlü kreditdir.

Tələbələr təhsil krediti almaq üçün notarial qaydada təsdiqlənmiş ərizə ilə elektron informasiya sisteminə *(www.e-ttkf.edu.az)* müraciət edə bilərlər. Müraciətlərin qəbulu bayram günləri və həftəsonu da daxil olmaqla, hər gün həyata keçirilir.

Qeyd edək ki, təhsil tələbə krediti verilən zaman girov və zəmanət tələb olunmur. Təhsil tələbə kreditlərinin alınması üçün tələbə tədrisə tam cəlb olunaraq təhsil müəssisəsində əyani təhsil almalıdır. Təhsil tələbə krediti uzunmüddətlidir və təhsil müddətində tələbədən kredit geri tələb edilmir və faiz hesablanmır.



# Romada İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə əlaqədar imzalanmış sənədlərin mübadiləsi mərasimi keçirilib

⇦ Əvvəli səh.1

## Azərbaycan Prezidenti İlham Əliyev mərasimdə iştirak edib

“ADA Universiteti və Milan Politexnik Universiteti arasında akademik əməkdaşlığa dair Saziş”i ADA Universitetinin rektoru professor Hafiz Paşayev və Milan Politexnik Universitetinin Dizayn Departamentinin direktoru professor Alessandro Deserti mübadilə etdilər.

Sənədlərin mübadiləsindən sonra dövlətimizin başçısı çıxış etdi.

Mərasim iştirakçılarını salamlayan Prezident **İlham Əliyev** dedi:

- Hörmətli xanımlar və cənablar, əziz dostlar.

Mən sizi səmimiyyətlə salamlayıram.

Azərbaycan səfirliyinə xoş gəlmisiniz.

Bugünkü mərasim Azərbaycan səfirliyinin yeni binasında keçirilir. Onu da deməliyəm ki, bu, yeni binada keçirilən ilk tədbirdir. Romanın tarixi məhəlləsində yerləşən bu tarixi bina bu gün öz qapılarını açır və eyni zamanda, bu binada Azərbaycanın Mədəniyyət Mərkəzi də fəaliyyət göstərəcək.

Mən çox şadam ki, bu binada keçirilən ilk tədbir məhz təhsil sahəsinə aiddir. Bu gün İtaliya-Azərbaycan əlaqələrinin yeni səhifəsi açılır. Təhsil sahəsində biz yeni genişmiqyaslı əməkdaşlığa başlayırıq. İki il bundan əvvəl İtaliyada dövlət səfərində olarkən mən bu təkliflə çıxış etmişdim ki, İtaliya-Azərbaycan Universiteti yaradılsın. İtaliya rəhbərliyi də bunu alqışladı və qısa müddət ərzində artıq biz praktiki fəaliyyətə başlayırıq.

Bu ilin aprel ayında Bakıda ADA Universitetinin kampusunda İtaliya xarici işlər naziri cənab Luici Di Maionun iştirakı ilə yeni tədris korpusunun təməli qoyuldu. İtaliyanın aparıcı universitetləri ilə ADA Universitetinin əməkdaşlığı iki ölkə arasındakı dostluq əlaqələrini möhkəmləndirəcək. Luiss Universiteti, Bolonya Universiteti, Milan Politexnik Universiteti, Turin Politexnik Universiteti, Roma Sapienza Universiteti — bu adlar İtaliyanın kənarında da məşhurdur. Onu da bildirməliyəm ki, İtaliya-Azərbaycan Universitetinin nəzdində iki institut — Kənd Təsərrüfatı və Qida Elmləri İnstitutu və Dizayn və Memarlıq İnstitutu fəaliyyət göstərəcək.

İtaliya ilə Azərbaycan arasında strateji tərəfdaşlığa dair iki sənəd imzalanmışdır. Bizim çox güclü siyasi-iqtisadi əlaqələrimiz mövcuddur. İtaliya Azərbaycanın birinci ticarət tərəfdaşıdır. Keçən il ticarət dövriyyəmiz 9,6 milyard, bu ilin yeddi ayında isə 11 milyard dollara çatıb.

Bugünkü mərasim isə onu göstərir ki, biz gələcəkdə təhsil sahəsində də strateji tərəfdaş kimi fəaliyyət göstərəcəyik. Heç kimə sirr deyil ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, bilik, savad, texnoloji tərəqqi müəyyən edir. Biz Azərbaycanda təbii resurslardan əldə edilmiş gəliri insan kapitalına yönəldirik və bugünkü tədbir bunun əyani sübutudur. Eyni zamanda, əminəm ki, İtaliya-Azərbaycan Universiteti İtaliya-Azərbaycan dostluğu mərkəzi olacaq. Bir sözlə, mən hesab edirəm ki, bu gün biz tarixi hadisənin şahidiyik. Bu gün mənim İtaliyaya işgüzar səfərimin birinci günüdür və birinci tədbiridir. Əminəm ki, İtaliya rəhbərləri ilə keçiriləcək görüşlər bizim dostluğumuzu, tərəfdaşlığımızı daha da möhkəmləndirəcək.

Bir daha hamınızı bu gözəl tarixi hadisə münasibətilə təbrik edirəm.

***

İtaliya Respublikası Ekoloji Keçid Nazirliyinin dövlət katibi xanım **Vannia Qava** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Hörmətli nazirlər.

Hörmətli sədrlər və hörmətli rektorlar.

Xanım nazir Maria Kristina Messanı əvəz edərək bu mərasimdə iştirak etməkdən iftixar və şərəf hissi duyuram. Əfsuslar olsun ki, xanım nazir bu gün Nazirlər Şurasında olan təcili və təxirəsalınmaz işlər səbəbindən bu tədbirdə iştirak edə bilmədi.

Ümumiyyətlə, apardığım fəaliyyətin əsas hissəsinə gəldikdə, qeyd etmək istəyirəm ki, bu, hər iki tərəf üçün strateji əhəmiyyət daşıyan, energetika sahəsində olan münasibətlərimizdir və bu münasibətlə mən son bir neçə ay ərzində Bakıya səfərlər etmişəm. Səfərlər zamanı məhz Dayanıqlı İnkişaf çərçivəsində ikitərəfli mühüm Memoranduma imza atmışam. Eyni zamanda, münasibətlərimizə gəldikdə, mən xüsusi olaraq bir daha onların strateji mahiyyətini burada qeyd edərək bildirmək istəyirəm ki, bu gün onlar bir çox sahələri əhatə edir - enerjidən tutmuş mədəniyyətə qədər. O cümlədən insanlarımız arasında qarşılıqlı münasibətləri də əhatə edir və əslində, bu, məhz Prezident Əliyevin 2020-ci ilin fevral ayında səfəri çərçivəsində bir daha özünü büruzə verdi. Eyni zamanda, bu, aprel ayında Bakıda xarici işlər nazirləri səviyyəsində aparılmış strateji dialoqun ilk iclasında özünü göstərdi.



Bu gün isə mən digər bir mərasimdəyəm və bizim İtaliyanın universitetləri ilə Azərbaycan universiteti arasında həm mədəniyyət, həm elmi-tədqiqatlar, həm də ümumiyyətlə, təhsil sahəsində növbəti əməkdaşlığın şahidiyik. Bunun əsasında bizim münasibətlərin miqyası genişlənir. Bu çərçivədə İtaliya ilə Azərbaycan arasında məhz bu sahədəki əməkdaşlığın yeni istiqaməti mədəniyyət, elm və texnologiya sahələrində əməkdaşlıq haqqında Sazişin 2006-cı ildə qüvvəyə minməsindən sonra baş tutdu. Nəticə etibarilə 2015-ci ildə biz mədəniyyət sahəsində əməkdaşlıq haqqında niyyət memorandumu imzaladıq və 2021-ci ildə elm sahəsində əməkdaşlığa dair protokola imza atdıq.

Bu baxımdan mən xüsusi olaraq qeyd etmək istəyirəm ki, ölkələrimiz arasında elmi əməkdaşlığın daha da inkişaf etdirilməsi, gücləndirilməsi, o cümlədən güclü ikitərəfli münasibətlərin növbəti səviyyəyə qaldırılması məqsədilə İtaliya vacib hesab etdi ki, ölkələrimiz arasında, həmçinin elmi-tədqiqatlarla məşğul olan elmi işçilərin də mübadiləsi baş tutsun. Onlar ikitərəfli tədqiqat layihələri çərçivəsində səfərləri mübadilə etmişlər. Onlar məhz təbii elmlər, tibb elmi, tətbiqi texnologiyalar və mədəni irsin qorunması sahələrində birgə işləmişlər.

Nüfuzlu universitetlər və nüfuzlu elmi-tədqiqat mərkəzləri tərəfindən təqdim edilmiş layihələrə gəldikdə, məmnuniyyətlə aşağıdakıları qeyd etmək istəyirəm: Paskale Fondu, Pavia Onkoloji İnstitutu, Kalabriya Universiteti, Elmi-Tədqiqatlar üzrə Milli Şura ilə aparılan layihələr. Qeyd etdiyim bütün bu təşkilatlar Azərbaycanda müvafiq qurumlarla güclü əlaqələrin qurulmasına müvəffəq olmuşlar.

Əslində, qeyd etdiyimiz bu istiqamətə gəldikdə, o, bu gün İtaliyanın beş nüfuzlu universiteti ilə ADA Universiteti arasında yaradılmış tərəfdaşlığa tam uyğundur. Mən burada xüsusilə aşağıdakı tədris ocaqlarına istinad etmək istəyərdim: Luiss Guido Carli Universiteti, Sapienza Universiteti, Milanın Politexnik Universiteti, Bolonya Universiteti, Turinin Politexnik Universiteti və digərləri. Qeyd edilən bu universitetlər İtaliya ilə Azərbaycan arasında münasibətlərin daha güclü, daha əhəmiyyətli şəkildə inkişaf etdirilməsinə öz razılıqlarını vermişlər. Bu münasibətlə, həmçinin mən İtaliyanın universitetləri və ADA Universiteti tərəfindən aparılmış bu işin həm öz tərəfimdən, həm xanım nazir Messa tərəfindən yüksək dəyərləndirildiyini, həmçinin burada — Romada Azərbaycanın Mədəniyyət Mərkəzinin açılışını xüsusilə qeyd etmək istəyirəm. Həmin mərkəz vasitəsilə mədəniyyət sahəsində olan əməkdaşlığımızın dəyəri daha da yüksək səviyyəyə qaldırılacaqdır və əməkdaşlıq güclənəcəkdir.

Xalqlarımız arasında təşəkkül tapmış və inkişaf etmiş bu cür səmimi dostluğu qeyd edərək bildirmək istəyirəm ki, bunun sayəsində münasibətlərimizin daha da dərinləşməsi üçün digər istiqamətlər açılır və bu sahələrdə biz öz işimizi davam etdirmək və tədqiqat işlərimizi bir yerdə aparmaq istərdik. Hesab edirəm ki, biz bu gün mühüm bir anı birlikdə qeyd edirik və bu, bizim strateji münasibətlərimizin xüsusi mərhələsi olacaqdır. Ən vacibi isə odur ki, biz bunu gələcəkdə birgə yazacağımız səhifələrin perspektivinin başlanğıc nöqtəsi kimi görürük.

***

İtaliya-Azərbaycan Universiteti üçün tərəfdaş italyan universitetləri adından Luiss Guido Carli Universitetinin vitse-prezidenti professor xanım **Paola Severino** çıxış edərək dedi:

- Hörmətli Prezident.

Hörmətli səfirlər, rektorlar, hökumət üzvləri.

Belə mühüm sazişlərin imzalanmasında universitetlərimizdən ibarət konsorsiumun bu işə bu qədər iftixar hissi ilə, bu qədər həvəslə yanaşdığına görə mən çox məmnun olduğumu bildirmək istərdim. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, mən indi bir neçə il bundan əvvəl Sizin ölkənizə, gözəl paytaxtınız Bakı şəhərinə etdiyim səfərləri xatırlayıram. Hörmətli rektor Hafiz Paşayevlə apardığımız danışıqlar mənim yaxşı xatirimdədir. Qeyd etmək istəyirəm ki, Sizin gözəl paytaxt şəhəriniz o vaxt mənə böyük təəssürat bağışladı. Çünki Sizin paytaxtınız bir tərəfdən öz xüsusi, hətta orta əsrlər və ondan əvvəlki tarixi dövrlərə gedib çıxan mədəni irsi ilə məhz fəxr edir. Digər tərəfdən, mən Bakıda müasirliyin, məhz göydələnlərdən ibarət olan o gözəlliyi sanki bizim ürəklərimizdə alovlanan bir alov kimi qəbul edirəm. Ona görə təşəkkür edirəm.

Elə həmin gündən etibarən biz böyük həvəslə sizinlə işləməyə başladıq. Əslində, öz aramızda mədəniyyət sahəsində əlaqələrin belə mühüm məqamlarına diqqət yetirdikdə, biz belə bir qərara gəldik bu, elə bir layihədir ki, onun mahiyyəti o qədər böyükdür ki, nəinki ADA Universiteti və Luiss Guido Carli Universiteti arasında, o cümlədən biz, həmçinin bu əlaqələrə digər italyan universitetlərini də qoşmalıyıq. Məhz bu səbəbdən biz istədik ki, ən vacib İtaliya universitetləri bizimlə birgə olsun, Roma Sapienza Universiteti, Turin Politexnik Universiteti, Milan Politexnik Universiteti və Bolonya Universiteti. Buna görə də mən çox şad oldum ki, digər tədris ocaqları da bu mühüm layihədə iştirak etdi. Əslində, bu addım İtaliya ilə Azərbaycan arasında nəinki mədəniyyət sahəsində olan, o cümlədən digər sahələrdə də əməkdaşlığın daha da genişləndirilməsinə böyük vüsət verəcək. Bu işə qoşulmuş universitetlərin adından burada mənə çıxış etməyi həvalə etdikləri üçün onların da nümayəndələrinə təşəkkürümü bildirirəm.

Əslində, iki il əvvəl cənab Prezident Əliyevin İtaliyaya dövlət səfəri çərçivəsində həmin universitetlərin nümayəndələri ilə də görüşlər keçirildi, vacib sazişlər imzalandı. Məhz bu addımdan sonra biz İtaliya ilə Azərbaycan arasında belə bir çoxtərəfli, çoxölçülü layihənin hazırlanması və onun həyata keçirilməsi qərarına gəldik. Bu da özlüyündə çox böyük əhəmiyyət daşıyır. Bu gün isə biz artıq Bakıda fəaliyyət göstərən İtaliya-Azərbaycan Universiteti haqqında danışırıq. Bilirik ki, əslində, o universitetin də təməli bu il bizim xarici işlər naziri Luici Di Maionun və Azərbaycanın müvafiq hakimiyyət orqanlarının iştirakı ilə qoyulmuşdur. Layihə beş İtaliya Universiteti ilə ADA Universiteti arasında həyata keçiriləcək. Onun əsas məqsədi həm təhsil, həm laboratoriya işləri, həm kadrların hazırlanması, o cümlədən dövlət və özəl sektorun nümayəndələri üçün müxtəlif tədbirlərin keçirilməsi məqsədini daşıyacaq.

Mən əminəm ki, istər sizin universitet təhsil sisteminizi götürsək, istərsə də İtaliyanın bu sistemini götürsək, biz birgə çalışaraq, əslində, innovasiyaya, işlərin daha da təkmilləşdirilməsinə, müxtəlif layihələrin hibridləşdirilməsinə yönəlmiş bir təkan yaranacaqdır ki, bu da, əslində, aramızdakı qarşılıqlı əməkdaşlığı daha da gücləndirəcək. Əhatə olunan sahələrə gəldikdə, biznes sahəsi, aqronomiya, dizayn, mühəndislik, memarlıq sahələri onların arasındadır. Bildiyiniz kimi, biz bunu ADA Universiteti ilə birgə müzakirə edərək razılaşdırmışdıq. İtaliya-Azərbaycan Universiteti orta və uzun perspektivdə ikitərəfli əməkdaşlığın inkişafı üçün mərkəzi platforma kimi xidmət edəcək. Bununla biz birgə səylər göstərərək, həm tələbələrimizə təhsil verərək, həm tədqiqatçılarımız üçün imkanlar yaradaraq, hər iki ölkənin iqtisadiyyatının ahəngdar inkişafına töhfə verəcəyik. Bu gün beynəlxalq səviyyədə yaşanılan çətinliklər dövründə Prezident Əliyev öz qətiyyətini, öz uzaqgörənliyini nümayiş etdirərək iki ölkə arasında əməkdaşlıq və dostluq münasibətlərinin daha güclü təməlini məhz burada qoydu. Biz burada məhz onun çox yüksək dəyərə malik olan liderlik keyfiyyətlərinin şahidiyik.

Cənab Prezident Əliyev, bu gün səhər bizimlə bu tədbirdə iştirak etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkürümüzü bildiririk.

***

ADA Universitetinin rektoru professor **Hafiz Paşayev** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli dövlət xadimləri, universitetlərin nümayəndələri.

Mənim hisslərimi, yəqin ki, siz yaxşı başa düşürsünüz. Çox həyəcanlıyam və bu günü mən bir tarixi gün kimi öz yaddaşıma yazıram. Hörmətli cənab Prezidentin dediyi kimi, bu, əsl tarixi bir gündür - həm İtaliya üçün, həm Azərbaycan üçün. Çünki təhsil məhz o sahədir ki, bizim ikitərəfli münasibətləri də genişləndirəcək və daha da yüksəkliyə qaldıracaq.

Cənab Prezident, Sizin iki il öncə irəli sürdüyünüz təşəbbüs bu gün öz nəticələrini verir. Mənim yaxşı yadımdadır ki, Sizin o təşəbbüsdən sonra ilk memoranduma qol çəkildi və professor Paula Severino ilə biz ilk sənədə o zaman qol çəkdik. Sizə açığını deyim, mən gözləməzdim ki, qısa bir zamanda biz bu səviyyədə indi o müqavilələrə qol çəkdik. Artıq demək olar ki, İtaliya-Azərbaycan Universiteti iki ölkə arasındakı münasibətlərin böyük bir hissəsidir. Təbii ki, mən öz tərəfimdən çalışacağam ki, bu, uğurlu olsun və Azərbaycan-İtaliya münasibətlərinə böyük töhfə versin.

Bu gələcək universitetin - bu gün, necə deyərlər, inauqurasiyasını etdiyimiz universitetin proqramı üzrə iki il ərzində COVID zamanı biz iş apardıq. O ki qaldı, onun infrastrukturuna, həmin bu universitetlərin nümayəndəliyinin iştirakı ilə biz laboratoriyaların, ümumən dərs sisteminin qurulmasına çox böyük diqqət yetirdik. Bunun nəticəsidir ki, bu gün imzaladığımız və mübadilə etdiyimiz sənədlərdə çox ciddi və ətraflı proqram tərtib olunmuşdur.

Mən bizim həmkarlarımıza, universitetlərin nümayəndələrinə böyük təşəkkürümü bildirmək istəyirəm. Mən bu işdə fəal iştirak etmiş bizim səfirliyi xüsusi qeyd etmək istəyirəm.

Cənab Prezident, mən Sizə söz verirəm ki, bu universitetin uğurunu birlikdə görəcəyik və İnşallah, Azərbaycanın iqtisadiyyatına lazım olan bütün sahələr üzrə mütəxəssislər yetişdirəcəyik. Çox sağ olun.

***

Sonda xatirə şəkli çəkdirildi.

***

Qeyd edək ki, bu il İtaliya Respublikasının xarici işlər və beynəlxalq əməkdaşlıq naziri Luici Di Maionun ölkəmizə səfəri çərçivəsində aprelin 2-də Bakıda ADA Universitetinin kampusunda təməli qoyulan İtaliya-Azərbaycan Universiteti Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. İtaliya-Azərbaycan Universitetinin yaradılması barədə razılıq Prezident İlham Əliyevin 2020-ci ildə İtaliyaya dövlət səfəri zamanı əldə olunub.

Bu ali təhsil ocağında tədris olunacaq akademik proqramlar iqtisadiyyatın strateji sektorlarını əhatə edəcək və yüksəkixtisaslı mütəxəssislər yetişdirəcək. Universitet, eyni zamanda, kənd təsərrüfatı və qida sənayesi, mühəndislik, o cümlədən elektrik və elektronika, nəqliyyat və infrastruktur mühəndisliyi, memarlıq, həmçinin şəhərsalma və landşaft memarlığı, dizayn, sosial elmlər, biznesin idarə olunması, italiyaşünaslıq və digər istiqamətlər üzrə təcrübə, nou-hau, texnologiya və innovasiyaların tətbiq ediləcəyi elm və bilik ocağı olacaq.

# Birinci vitse-prezident Mehriban Əliyeva orta məktəb binasının və körpələr evi-uşaq bağçasının açılışlarında iştirak edib





Avqustun 26-da Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva paytaxtın Xəzər rayonunun Binə qəsəbəsində 334 saylı tam orta məktəbin yeni inşa edilmiş binasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov Birinci vitse-prezident Mehriban xanım Əliyevaya məktəbin yeni binasında yaradılan şərait barədə məlumat verdi.

Bildirildi ki, Binə qəsəbəsindəki Hövsan tərəvəzçilik-südçülük sovxozunun ərazisi əhalinin sıx məskunlaşdığı yerlərdən biridir. Şagirdlər Binə qəsəbəsindəki mövcud təhsil müəssisəsinə qədər 5 kilometrdən çox məsafə qət etməli olurdular. Mövcud vəziyyət nəzərə alınaraq, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə Fond tərəfindən Binə qəsəbəsində 800 yerlik yeni məktəb binası inşa olunub, yeni tədris ili ərəfəsində müəllim və şagirdlərin istifadəsinə verilib.

Məktəbin üçmərtəbəli binasında sinif, laboratoriya, əmək təlimi otaqları, yeni texnologiyalar və robototexnika üzrə kabinet, informatika sinfi, hərbi hazırlıq otağı, məktəbəqədər hazırlıq sinfi, kitabxana, idman və akt zalları, arxiv otaqları, yeməkxana yaradılıb.





Eyni zamanda, açıq havada futbol meydançası salınıb, istirahət köşkləri quraşdırılıb. Məktəbin ərazisi abadlaşdırılıb və yaşıllıq salınıb.

***

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva avqustun 26-da Bakı şəhəri Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində Heydər Əliyev Fondunun təşəbbüsü ilə 277 saylı körpələr evi-uşaq bağçasının əsaslı şəkildə yenidən qurulan binasının açılışında iştirak edib.

Birinci vitse-prezident körpələr evi-uşaq bağçasında yaradılan şəraitlə tanış oldu.

Körpələr evi-uşaq bağçasının müdiri Aygün Allahverdiyeva məlumat verdi ki, 277 saylı körpələr evi-uşaq bağçasının binası 1993-cü ildə inşa edilib. Binada təmir işlərinə ehtiyac yarandığından Heydər Əliyev Fondunun təşəbbüsü ilə əsaslı təmir işləri aparılıb və körpələr evi-uşaq bağçası müasir tələblərə uyğun yenidən qurulub, zəruri mebel, inventar və avadanlıqla təchiz olunub.

Diqqətə çatdırıldı ki, 220 yerlik körpələr evi-uşaq bağçası iki korpusdan ibarətdir. Uşaq bağçasının həyətyanı sahəsi abadlaşdırılıb, burada əyləncə qurğuları quraşdırılıb.

## Elm və təhsil naziri Salyanda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev sentyabrın 28-də Salyan şəhərində Şirvan şəhəri, Hacıqabul, Neftçala, Biləsuvar və Salyan rayonlarında qeydiyyatda olan sakinləri qəbul edəcək. Qəbulda qeyd olunan şəhər və rayonlarda müvəqqəti məskunlaşmış məcburi köçkünlər də iştirak edə bilərlər.

Qeyd olunan şəhər və rayonların sakinləri 16 sentyabr 2022-ci il (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146-6 nömrəli telefonuna (yalnız iş günləri və saatları ərzində) zəng, elektron *(https://edu.gov.az/az/contact_us)* və rəsmi "Whatsapp" xidmətinə (0512067848) müraciət etməklə qəbula yazıla bilərlər.

Qəbulda yalnız yuxarıda göstərilən tarixlərdə müraciət etmiş şəxslər iştirak edəcək. Müvafiq qaydada müraciət etmiş və adları qəbula yazılanlar siyahısında olan şəxslər qəbulun keçirildiyi otağa şəxsiyyət vəsiqəsi əsasında buraxılacaqlar.

## "Rəqəmsal bacarıqlar" layihəsi 300000 şagirdi əhatə edəcək

Elm və Təhsil Nazirliyi və "Alqoritmika" beynəlxalq məktəbi ilə birgə reallaşdırılan "Rəqəmsal bacarıqlar" layihəsinin ölkə üzrə əhəmiyyəti, uğurlu tətbiqi, eləcə də ictimaiyyət tərəfindən müsbət qarşılanması nəzərə alınaraq, layihənin 2022-2023-cü tədris ilində həm coğrafi (48 şəhər və rayon), həm də müəllim-şagird sayı baxımından əhatəsi genişləndirilir. Belə ki, yeni tədris ilindən etibarən layihə respublika üzrə bütün şagirdlərin təxminən 20 faizini, yəni 418 ümumi təhsil müəssisəsinin II-XI siniflərində təhsil alan 300000 şagirdi əhatə edəcək. Ölkə üzrə təhsilverənlərin 2000-dən çoxunun layihə üzrə tədris etməsi nəzərdə tutulub ki, bu rəqəm ötən illərlə müqayisədə təxminən 50 faiz çoxdur.

Layihə Bakı, Sumqayıt, Gəncə, Mingəçevir, Biləsuvar, Şamaxı, Lənkəran, Şirvan, Şəki, Yevlax, Xaçmaz, Sabirabad, Salyan, Şəmkir, Göyçay və Şabranla yanaşı Astara, Ağsu, Bərdə, Cəlilabad, Hacıqabul, Quba, Kürdəmir, Masallı, Saatlı, Oğuz, Qax, Qusar, Qəbələ, Siyəzən, Tərtər, Ucar, İmişli, İsmayıllı, Ağcabədi, Ağstafa, Balakən, Beyləqan, Daşkəsən, Naftalan, Qazax, Samux, Tovuz, Zaqatala, Qobustan, Zərdab və Gədəbəyi əhatə edəcək. Hazırda layihəyə yeni qoşulan şəhər və rayonların informatika müəllimləri üçün istifadə olunan rəqəmsal sistemin uğurlu tətbiqi üzrə ixtisasartırma təlimləri keçirilir.

Qeyd edək ki, 2021-2022-ci tədris ilində layihə 16 şəhər və rayonun 250 məktəbini və ümumilikdə 190 min şagirdi əhatə edib.

2017-2018-ci tədris ilindən həyata keçirilən "Rəqəmsal bacarıqlar" layihəsinin məqsədi təhsilalanlara alqoritmik təfəkkür, məntiqi təfəkkür, layihə hazırlama bacarıqları və proqramlaşdırmanın əsaslarını tədris etməkdir.

## Avqustda 178 nəfərin diplomu tanınıb

Təhsildə Keyfiyyət Təminatı Agentliyi avqust ayı üçün tanınma üzrə müraciətlərin statistikasını açıqlayıb. Belə ki, avqust ayı üzrə 200 müraciətçinin 178-i barədə müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim edilib, 22 nəfərin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Təhsil ölkəsində tələb olunan minimal müddətin ödənilməməsi, həm də tədris dilinin qənaətbəxş olmaması səbəbi ilə 7, tədris dili üzrə bilik səviyyəsinin qənaətbəxş olmaması səbəbi ilə 6, tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində kifayət qədər olmaması səbəbi ilə 4, digər səbəblər üzrə 5 nəfərin müraciəti mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 81, Rusiyadan 63, Ukraynadan 22, Böyük Britaniya və Şimali İrlandiya Krallığından 9, Gürcüstandan 6, digər ölkələrdən isə 19 müraciətin olduğu müşahidə olunur.

Ən çox müraciət olunan ixtisaslara gəlincə, tibb üzrə 27, hüquqşünaslıq üzrə 16, iqtisadiyyat üzrə 11, biznesin idarə edilməsi 10, stomatologiya üzrə 10 nəfər müraciətçi qeydə alınıb.

Qeyd edək ki, sənədlərə ortalama baxılma müddəti 22 gün təşkil edib.

Vətəndaşlar xarici ali təhsil ixtisaslarının tanınması üçün *www.tanınma.az* keçidinə daxil ola bilərlər.

# Elm və təhsil naziri Bakı və Sumqayıtda məktəb direktorları ilə görüşüb







Avqustun 27-də elm və təhsil naziri Emin Əmrullayev Bakı şəhərində yerləşən ümumi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb.

Görüşdə əvvəlcə pedaqoji heyətin vəzifə maaşlarına əlavələrlə bağlı qərar müzakirə edilib, qarşılıqlı fikir mübadiləsi aparılıb.

Emin Əmrullayev məktəb direktorlarının nüfuzu, məktəb-icma münasibətləri, məktəbdə öyrənmə mühitinə təsir edən amillər, təhsilverənlərin sertifikatlaşdırılması mövzularında çıxış edib.

Nazir tədrisin keyfiyyətinin artmasına yönələn tədbirlər barədə də məlumat verib.

Görüşün sonunda direktorların çoxsaylı sualları cavablandırılıb.

***

Avqustun 29-da elm və təhsil naziri Emin Əmrullayev Sumqayıt şəhərində Abşeron-Xızı Regional Təhsil İdarəsinə daxil olan ümumi təhsil müəssisələrinin rəhbərləri ilə görüşüb.

Görüşdə direktorların fəaliyyəti, valideyn-məktəb münasibəti və digər məsələlər ətrafında qarşılıqlı fikir mübadiləsi aparılıb. Həmçinin təhsil sahəsinin mövcud problemləri və həlli istiqamətində fikirlər səsləndirilib, təhsilin keyfiyyətinin artırılması, bu istiqamətdə görülən işlər və gələcək planlar müzakirə olunub.

Emin Əmrullayev məktəblərin qarşısında dayanan yeni çağırışlar, məktəb-icma münasibətləri, məktəbdə öyrənmə mühitinə təsir edən amillər, məktəb direktorlarının üzərinə düşən öhdəliklər, təhsilverənlərin sertifikatlaşdırılması mövzularında fikirlərini bölüşüb.

Görüşün sonunda direktorların çoxsaylı sualları cavablandırılıb.

Elm və təhsil naziri Sumqayıt şəhərinə səfəri çərçivəsində 31 nömrəli tam orta məktəbdə keçirilən məktəbəqədər təhsil müəssisələrinə tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə test imtahanlarını da izləyib. Bildirilib ki, test imtahanlarında hər bir namizədə məzmun və metodikaya aid 40 sual, pedaqoji və psixoloji yanaşmalara aid 20 sual təqdim edilib. Test tapşırıqlarının cavablandırılması üçün namizədlərə 120 dəqiqə vaxt ayrılıb. Bu mərhələdə məzmun və metodika, həmçinin pedaqoji və psixoloji yanaşmalara aid test tapşırıqlarının hər biri 1 bal olaraq hesablanacaq. Ümumilikdə 60 ballıq qiymətləndirmə sistemi tətbiq ediləcək.

## Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin Bakı Koordinatoru ilə görüş



Türk Əməkdaşlıq və Koordinasiya Agentliyinin (TİKA) Bakı Koordinatoru Fatih Yılmaz və Təhsilin İnkişafı Fondunun (TİF) İdarə Heyətinin sədri Elnur Nəsibov arasında görüş keçirilib.

TİF İdarə Heyətinin sədri Elnur Nəsibov Fondun fəaliyyəti və məqsədləri barədə məlumat verib. Bildirib ki, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin tabeliyində Təhsilin İnkişafı Fondu publik hüquqi şəxsi Azərbaycan Respublikası Prezidentinin fərmanına uyğun olaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 1 mart 2022-ci il tarixli qərarı ilə yaradılıb. Fondun əsas vəzifəsi təhsilin inkişafı ilə bağlı dövlət siyasətinin formalaşdırılmasında, təhsil və iqtisadiyyatın inteqrasiyasının gücləndirilməsində iştirak etmək, təhsil sisteminin inkişafına yönəlmiş ictimai və sosial əhəmiyyətli proqram və layihələri maliyyələşdirmək, təhsil müəssisələrinin maddi-texniki bazasının müasir tələblərə uyğunlaşdırılmasına dəstək, təhsilin inkişafını təşviq edən mexanizmlərin hazırlanması və icrasında iştirak etmək, nazirliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə və maddi təminatının yaxşılaşdırılmasına yardım etməkdən ibarətdir.

Görüşdə Azərbaycanın və Türkiyənin təhsil sahəsindəki uğurlarına toxunulub, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

## BDU-da Texnologiya Transfer Ofisi fəaliyyətə başlayacaq

Bakı Dövlət Universitetinin (BDU) nəzdində Türkiyənin Ankara Universiteti və İzmir Yüksək Texnologiya İnstitutu ilə əməkdaşlıq çərçivəsində Texnologiya Transfer Ofisi fəaliyyətə başlayacaq. Texnologiya Transfer Ofisi innovativ ideya və elmi nəticələrin kommersiyalaşdırılması, şirkətlərlə iş, akademik heyətin və tələbələrin tətbiq xarakterli layihələrə cəlb edilməsi, beynəlxalq qrantlara çıxış, qrant layihələrinin hazırlanması, patentləşdirmə, universitet-sənaye əməkdaşlığının formalaşdırılması istiqamətlərində fəaliyyət göstərəcək.

Texnologiya Transfer Ofisi xüsusilə startap şirkətlərin qurulması üçün münbit şəraitin formalaşmasında, kommersiya dəyəri olan ideya və nəticələrin sənayeyə təqdimatında və tətbiqində mühüm rol oynayacaq.

## AzTU ilə TUSAŞ arasında əməkdaşlıq imkanları müzakirə olunub

Azərbaycan Texniki Universitetinin (AzTU) rektoru Vilayət Vəliyev Türk Aviasiya və Kosmos Sənayesinin (TUSAŞ) nümayəndələri ilə görüşüb.

Universitetdən bildirilib ki, görüşdə universitet-sənaye işbirliyi çərçivəsində TUSAŞ-la əməkdaşlıq istiqamətləri müəyyənləşdirilib.

Daha sonra TUSAŞ nümayəndə heyəti AzTU-da aparılan yenidənqurma işləri ilə tanış olub.

Qonaqlar universitetin laboratoriya və auditoriyalarına da baxış keçiriblər.

## ADNSU-nun rektoru Beynəlxalq konfransda plenar çıxışlar edib



Monteneqronun Budva şəhərində Qeyri-səlis sistemlər, Soft Kompütinq və Süni intellektin tətbiqləri üzrə 15-ci Beynəlxalq konfrans keçirilib. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) təşkilatçılığı ilə keçirilən konfrans professor Lütfi Zadənin xatirəsi və Zadə irsinin davamçısı, texnika elmləri doktoru, professor Rafiq Əliyevin 80 illik yubileyinə həsr olunub.

Elmi konfransda həmsədr, ADNSU-nun rektoru, professor Mustafa Babanlı "Z-əsaslı informasiya şəraitində material seçimi üçün çoxatributlu qərar qəbuletmə", eləcə də "Z-lab proqram paketi" mövzuları üzrə plenar çıxışlar edib. Çıxış iştirakçılar tərəfindən maraqla qarşılanıb.

Müxtəlif ölkələrdən dəvət olunmuş professorların həmsədrliyi ilə baş tutan konfransa ABŞ, Kanada, Rusiya, Polşa, İspaniya, İtaliya, Liviya, Şri- Lanka, BƏƏ, İran, Özbəkistan, Qazaxıstan, Türkiyə, Azərbaycan, Kipr kimi ölkələrdən120-yə yaxın məqalə və tezis təqdim olunub.

# Nailiyyət qazan, üstünlüklərini artır!

*Müəllimlərin peşə bacarıqlarının və peşə yararlılıqlarının ölçülməsinə başlanılıb. Bu məqsədlə 3 gün - avqustun 30, 31-də və sentyabrın 1-də sertifikasiya imtahanları keçirilib. İlkin mərhələdə Elm və Təhsil Nazirliyi, Bakı Şəhəri üzrə Təhsil İdarəsi, Abşeron-Xızı, Gəncə-Daşkəsən, Quba-Xaçmaz regional təhsil idarələrinin tabeliyində olan ümumi təhsil müəssisələrində çalışan 11 mindən çox ibtidai sinif müəllimi Bakı, Sumqayıt, Gəncə şəhərləri və Xaçmaz rayonu olmaqla, ümumilikdə 8 imtahan mərkəzində imtahan verib. Xüsusi fəallıq müşahidə edilən imtahanlara dəvət olunanların 97.2 faizi qatılıb. İbtidai sinif müəllimliyi üzrə imtahan verənlər qadınlar olub.*

*Məlumat üçün qeyd edək ki, 2 mərhələdə keçirilən sertifikatlaşdırmanın ilk - test imtahanları digər regionlarda da davam edəcək. Bu barədə əlavə məlumat veriləcək.*



**Rüfət Əzizov**



**Rəna Ağayeva**



**Xanımana Məlikova**



**Aynurə Başirova**

## Təhsilverənlərin 97.2 faizi sertifikasiya imtahanlarına qatıldı



### “Bir ibtidai sinif müəllimi üçün çətin heç nə yoxdur”

8 imtahan mərkəzindən biri olduğu üçün Azərbaycan Texniki Universitetinin idman zalı yenə həyəcanlı anlara şahidlik edib. İmtahanların ilk günündə bilik və bacarıqlarını nümayiş etdirməyə gələnlərdən biri Bakı Avropa liseyinin ibtidai sinif müəllimi Rəna Ağayeva idi. O, imtahan zalından ən tez çıxanlardan biri oldu. Balı yüksək olduğu üçün sevincliydi: “İmtahanda müəllimin gündəlik fəaliyyətindən suallar düşür. Dərsdə istifadə etdiyimiz tapşırıqlar, çalışmalar verilib. Hətta orta məktəbdə ibtidai sinif müəllimlərinin edə biləcəyi tapşırıqların ən aşağı səviyyədə olanları vardı. Bu suallarla 56 yox, 60 bal yığmalıydım. Tələsdim mən. 20 dəqiqə tez bitirməyin nəticəsidir. Bu müddətdə suallara yenidən baxar, səhvlərimi görə bilərdim”.

Səhvlərinə özü gülür: “Sonluqlardakı inkar şəkilçilərinə baxmamışam. Uşaqlarda hər zaman qüsur tutduğum, diqqətli olmalarını tələb etdiyim tələyə indi özüm düşdüm”.

Rəna müəllimin həmkarlarına tövsiyəsi tələsməmələridir: “Sadəcə diqqətli olmaq lazımdır. Mən həm də təlimçi müəlliməm. Müxtəlif bölgələrdəki məktəblərdə təlimlər aparırıq. Ona görə də ümumi orta məktəb proqramından xəbərim var. Bir ibtidai sinif müəllimi üçün çətin heç nə yoxdur. Sualı diqqətlə oxusunlar, tələsməsinlər, vəssalam”.

### Sertifikatlaşdırmanın hər iki mərhələsində uğur qazananların maaşı fərqli tariflə hesablanacaq

Təhsil İnstitutunun direktoru Rüfət Əzizov sertifikatlaşdırmanın test mərhələsi ilə bağlı “Azərbaycan müəllimi” qəzetinə məlumat verərək deyib ki, prosesdə müəllimlərin fəallığı ilk imtahandan bəlli olub: “Əslində, sertifikasiya imtahanlarının ilk günlərindən burada fəallıq hiss edilir. Dəvət olunanların böyük əksəriyyəti, 97.2 faizi imtahanlara qatılıb və bu da müəllimlərin öz peşə bacarıqlarına inandıqlarının göstəricisidir. Bu fəallığa onların rəğbətləndirilməsinin, yəni nəticələrinin maaşlarına təsir etməsinin də böyük rolu olduğunu düşünürəm”.

R.Əzizovun sözlərinə görə, sertifikatlaşdırmanın hər iki mərhələsində - test imtahanları və müsahibədə uğur qazananların maaşı fərqli tariflə hesablanacaq: “30 və daha artıq bal toplayan, müsahibədə isə 20 bal toplayaraq sertifikatlaşan müəllimlərin maaşı 10 faiz artacaq. Daha yaxşı nəticə göstərən, yəni imtahan mərhələsində 51 baldan artıq göstəricisi olan müəllimlərin maaşı 35 faiz artırılacaq”.

### Sertifikasiyada yaş amili

Sertifikatlaşdırmaya yaşından asılı olmayaraq bütün müəllimlər dəvət olunub. 64 yaşlı müəllim sertifikasiyada niyə iştirak eləsin və etməsə nə olar? R.Əzizovun fikrincə, ilk növbədə, daha yüksək maaş üçün sertifikatlaşdırma şərtdir, ancaq müəllimin əmək fəaliyyətinə davam etməsində digər amillərin də nəzərə alınacağı mütləqdir: “Sertifikatlaşdırma və 65 yaşından sonra əmək fəaliyyətinə davam etmək, iki fərqli prosesdir. 65 yaşdan sonra müəllimin fəaliyyətə davam edib-etməməsi məktəbin ehtiyaclarından, müəllimin o vaxta qədər olan nailiyyətlərindən asılıdır. Müəllim sertifikatlaşdırmada nailiyyət qazanırsa, bu, onun üstünlüklərini artırır”.

### “60 bal toplaya bilərdim”

Bakı şəhəri 26 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi Xanımana Məlikova 56 bal toplayıb. 61 yaşlı müəllim deyir ki, yaşına görə onu sertifikasiyaya dəvət etməsəydilər, özü könüllü iştirak etməyi düşünüb: “1993-cü ildən 26 nömrəli tam orta məktəbdə çalışıram. “Sağlam təhsil” layihəsi başlayanda məktəbimiz namizədliyimi irəli sürdü. Bacarığımı qiymətləndirməsələr, bunu etməzdilər. İsrarlıyam, hədəfimə çatmadan rahatlıq tapa bilmirəm. İndi də düşünürəm ki, keşkə daha bir şansım olsaydı, təkrar imtahan verərdim. Bu imtahana 60 bal toplamaq məqsədilə getmişdim. Səhvlərimi özümə bağışlaya bilmirəm”.

Xanımana müəllim diaqnostik qiymətləndirmədə də yüksək nəticə göstərib: “Adından göründüyü kimi, diaqnostik qiymətləndirmə idi. Heç bir əlavə hazırlıq keçmədən gedib 54 bal toplamışdım”.

Amma sertifikasiyaya hazırlıq üçün öz üzərində əlavə işləyib: “Öz üzərində daim işləyən müəllim olsam da, sertifikasiyanın keçiriləcəyi barədə eşidəndən əlavə materiallar oxuyuram. Daha çətin olacağını düşünürdüm. Ona görə də daha mürəkkəb suallar üzərində işləyir, daha çətin mövzularla bağlı ədəbiyyat oxuyurdum. 60 bal toplaya bilərdim...”.

### İmtahana gəlməyənlər iştirak edib uğur qazana bilməyənlərlə eyni kateqoriyada olacaq

İştirak faizi yüksək olsa da, imtahana gəlməyənlər də var. Bəs, onların taleyi necə olacaq? R.Əzizovun sözlərinə görə, gəlməyənlər iştirak edib uğur qazana bilməyənlərlə eyni kateqoriyada olacaq.

İmtahana gəlməyənlərin, gəlsə də 30 baldan aşağı nəticə göstərənlərin özünü doğrultması üçün qarşısında bir il var. Təhsil İnstitutu onların növbəti sertifikasiya imtahanlarında uğur qazanmaları üçün ehtiyacları olan köməyi əsirgəməyəcək: “Təhsil İnstitutu son bir ildə müəllimlərin sertifikatlaşdırılması imtahanına hazırlıqla bağlı müxtəlif çoxsaylı tədbirlər görüb. 80-dən artıq vebinar keçirilib. Həmin o vebinarlarda müxtəlif fənlər üzrə sertifikatlaşdırma imtahanlarının qiymətləndirmə çərçivələri müəyyən olunub. Bakı şəhərində və regionlarda müəllimlərlə görüşlər, seminarlar keçirilib. Seminarlarda 7000-dən artıq ibtidai sinif müəllimi iştirak edib. Müəllimlərlə görüşlərdə çərçivə sənədi izah olunub, nümunə testlər, testlərin həlli yolları göstərilib. Sertifikatlaşdırma nümunəsi sualları Təhsil İnstitutunun veb səhifəsində paylaşılıb. Bir neçə gün əvvəl isə sınaq imtahanları təşkil edilib ki, arzulayan müəllimlər özlərini yoxlasınlar. Dəstək məqsədli bu tədbirlərin hamısı ödənişsiz həyata keçirilib. 80-dən artıq vebinarın hər birində 150 müəllim iştirak edib. Sonradan vebinarların videoları paylaşılıb, sosial şəbəkə hesablarında 3000-5000 baxış sayı müşahidə olunub. Sınaq imtahanlarında da 3000-dən artıq şəxs iştirak edib”.

Bu və müəllimlərə kömək olacaq başqa bir çox tədbirlərin təşkili davam edəcək.

### “Bir müəllim olaraq bilməməyim mənim eyibim olar...”

İmtahanlarda uğur qazanan daha bir müəllim, Aynurə Başirova Qobu qəsəbə 2 nömrəli tam orta məktəbdə 28 ildir ki, çalışır: “Məktəbimizdə çox savadlı müəllimlər var. Əminəm ki, məndən daha yüksək nəticə əldə edənlər olacaq”.

54 bal toplayaraq uğura imza atan Aynurə Başirova yüksək nəticəni öz üzərində işləməyi ilə əsaslandırır: “Öz üzərimdə daim işləyirəm. Təhsildə tətbiq edilən hər yenilikdən xəbərdar olmağa çalışıram. Bilmədiyim olmasın deyə çox oxuyuram. Bir müəllim olaraq biməməyim mənim eyibim olar, deyə düşünürəm”.

Aynurə müəllim 2 variant arasında qaldığı suallarda yanlışlığa yol verdiyini düşünür: “Hesab edirəm ki, səhvlərim kurikuluma aid sualların cavablarındadır. İnanıram ki, müəllimlərin çoxu bu sualların öhdəsindən uğurla gələcək”.

46 yaşlı A.Başirova deyir ki, 58 bal toplayacağını düşünürmüş: “Diaqnostik qiymətləndirmədə də yaxşı nəticə göstərmişdim. 48 bal o vaxt ibtidai sinif müəllimləri arasında ən yüksək nəticələrdən biri idi. İndiyədək niyə MİQ imtahanlarına qatılıb özümü yoxlamadığıma təəssüflənirəm. İş yerimi dəyişdirmək fikrim olmayıb deyə imtahanlara da qatılmağı düşünməmişəm. Sertifikasiyanın olmağı yaxşıdır ki, bilik və bacarıqlarımızı özümüzün də ölçmək, müəyyənləşdirmək imkanımız oldu”.

### Test imtahanlarında 30 və daha yüksək bal toplayanlar növbəti mərhələyə dəvət ediləcəklər

İbtidai sinif müəllimlərinin test imtahanları bitdikdən sonra müsahibələrə start veriləcək. Test imtahanlarında 30 və daha yüksək bal toplayanlar müsahibə mərhələsinə dəvət ediləcəklər. 40 baldan ibarət müsahibə mərhələsində 20 bal toplayan müəllimlər sertifikatlaşmış hesab olunacaqlar.

**Ruhiyyə DAŞSALAHLI**

# “StudentFest 2022”

## Silsilə tələbə düşərgəsinin ikinci mərhələsi yekunlaşıb









“Bir Könüllü” Tələbələrin Əməkdaşlığı İctimai Birliyi tərəfindən 26-29 avqust tarixlərində bütün ixtisaslar üzrə ali təhsil alan tələbələr üçün təşkil olunan “StudentFest 2022” adlı tələbə düşərgəsinin ikinci mərhələsi başa çatıb.

Bağlanış mərasimində iştirak edən elm və təhsil nazirinin müşaviri, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov tələbələrdə yeniliklərə qarşı yaradıcı təfəkkür və açıq düşüncə tərzini formalaşdırmaq, yeni dostluqlar qazanmaq, eyni zamanda, asudə vaxtı daha səmərəli keçirmək baxımından faydalı olan bu tip düşərgələrin davamlılığının zəruri olduğunu vurğulayıb.

Daha sonra Elm və Təhsil Nazirliyinin İnformasiya və vətəndaşlara xidmət şöbəsinin müdir müavini Səbuhi Rzayev nazirliyin dəstəyi ilə indiyədək təşkil olunan tələbə düşərgələri haqqında ümumi məlumat verib.

Düşərgədə iki gün ərzində Bakı Mühəndislik Universitetinin müəllimi Tahirə Salayeva, Elm və Təhsil Nazirliyinin Beynəlxalq Əməkdaşlıq şöbəsinin əməkdaşları Niftalı Qasımlı və Elçin Hüseynov, Dövlət Məşğulluq Agentliyinin Karyera planlaması şöbəsinin müdiri Əli Qurbanlı, I Yüksəliş müsabiqəsinin qalibləri Antiinhisar və İstehlak Bazarına Dövlət Nəzarət Xidmətinin şöbə müdiri Xamis Seyranov, Elm və Təhsil Nazirliyinin Elm, ali və orta ixtisas təhsili şöbəsinin sektor müdiri Turxan Süleymanov, Təhsildə Keyfiyyətin Təminatı Agentliyinin şöbə müdiri Asiman İlyasov, layihələrin idarə edilməsi üzrə ekspert, II Yüksəliş müsabiqəsinin qalibi Nərgiz İsmayılova, “189 Taxi” şirkətinin rəhbəri Samir Kərimovun təqdimatında müxtəlif mövzularda informativ sessiyalar təşkil olunub.

Düşərgə çərçivəsində Fövqəladə Hallar Nazirliyinin (FHN) Xüsusi Riskli Xilasetmə Xidmətinin əməkdaşları tərəfindən faydalı praktik məşğələlər də keçirilib.

Düşərgə Zuğulba Təhsil İdman Mərkəzinin məşqçi-müəllimləri və idman mütəxəssislərinin dəstəyi ilə təşkil edilən müxtəlif idman yarışları, həmçinin tələbələrin asudə vaxtlarının daha səmərəli və produktiv keçirilməsi məqsədilə “Nə? Harada? Nə zaman?” və Breyn-rinq formatlarında oyunlarla, musiqili proqramlarla yadda qalıb.

# Uğur olsun, İlqar müəllim...

Onunla redaksiyada ilk görüşümü xatırlayıram... Redaksiyamıza növbəti məqaləsini gətirmişdi. İlqar müəllimlə ilk tanışlığımız onda oldu. Sonradan isə İlqar müəllim redaksiyamıza dəfələrlə gələrək maraqlı yazılarını təqdim edirdi. Onun “Qanlı 20 Yanvar”, “26 Fevral - Xocalı faciəsi”, “31 Mart - Azərbaycanlılara qarşı soyqırım siyasəti”, “31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü” və s. mövzularda yazdığı dərs nümunələri yüksək səviyyəli yazı kimi qiymətləndirilirdi. Növbəti görüşümüzdə jurnalist marağı ilə İlqar müəllimdən özü haqqında daha ətraflı məlumat verməsini xahiş etdim. Deyim ki, onunla danışdıqca maraqlı müsahibəyə rast gəldiyimi hiss edirdim. Belə ki, özüm də ixtisasca tarix müəllimi olduğuma görə və əvvəllər orta məktəbdə bu fənni tədris etdiyimdən İlqar müəllimlə danışarkən ortaq “təmas nöqtələri”ni çox axtarmaq lazım gəlmirdi. Aramızda çox səmimi söhbət alınmışdı. Oxucularımıza fədakar müəllimi daha da yaxından tanıtmaq, onun pedaqoji fəaliyyətindəki nailiyyətlərindən söz açmaq istərdim.



İlqar Abdullayev 1962-ci ildə anadan olub. 1979-cu ildə orta məktəbi qızıl medalla, 1985-ci ildə isə BDU-nun tarix fakültəsini bitirərək təyinatla doğma kəndi - Salyan rayonunun Qızılağac kəndində tarix müəllimi kimi əmək fəaliyyətinə başlamışdır. Vaxtı ilə “Azərbaycan tarixi”ni yazmış böyük tarixçimiz Əlövsət Quliyevin doğma kəndində dörd il müəllim işlədikdən sonra perspektivli kadr kimi 1989-1990-cı tədris ilində o vaxtlar BDU-nun nəzdində açılmış orta məktəblər üçün praktik - psixoloqlar hazırlayan kursu bitirmiş və Salyan RTŞ-də metodist-psixoloq vəzifəsində çalışmışdır. Paralel olaraq Salyan şəhər 1 nömrəli orta məktəbdə tarix fənnini tədris edən İlqar müəllim praktik - psixoloq kimi psixologiya sahəsində əldə etdiyi biliyi tarixin tədrisi ilə üzvi şəkildə əlaqələndirməklə daha yüksək nailiyyətlər əldə edir. Belə ki, artıq növbəti ildə onun yetirməsi - Kərimli Leyla Balamməd qızı tarix fənni üzrə olimpiadanın Respublika turunda qalib olduqdan sonra 1992- ci ildə 700-ə yaxın bal toplayaraq BDU-nun Beynəlxalq münasibətlər fakültəsinə qəbul olunmuşdur. Tələbələr arasında öz istedadı, zəkası, əməksevərliyi, səmimiyyəti ilə seçilən Leyla təzliklə universitet rəhbərliyinin də diqqətini cəlb etmiş və o təhsilini davam etdirmək üçün Parisə, Sen-Jermen Universitetinə göndərilir. Parisdə təhsilini başa vuraraq bir müddət Qərb və Bakı Dövlət Universitetlərində dərs deyən Leyla yenidən imtahan verməklə əvvəlcə Berkli, sonra isə Nyu-Yorkdakı Kolumbiya Universitetlərində çalışır. Hazırda Koliforniya Universitetinin tarix üzrə professorudur. Leyla İlqar müəllimin olimpiadalarda qalib gələn ikinci şagirdi idi.

Olimpiadalarda birinci qalib isə İlqar müəllim hələ Qızılağac kəndində işləyərkən yetişdirdiyi Əliyev Aydın Zöhrab oğlu olmuşdur. Orta məktəbi qızıl medalla bitirən Aydın həmin il qəbul imtahanlarını da müvəffəqiyyətlə verərək BDU-nun hüquq fakültəsinə qəbul olunmuşdur. Hazırda Oğuz rayonunun prokurorudur. 2011-ci ilə qədər Salyanda işləyən İlqar müəllim rayonun tarixində o vaxta qədər tarix fənni üzrə olimpiadaların Respublika turunda iştirak etmiş 16 şagirddən 13-nü yetişdirmişdir. O, bu 13 şagirddən Vaqif Abbasovu xüsusilə qeyd edir. Belə ki, Vaqif 8-ci sinif şagirdi olduğu halda rayonu 9-cu sinif şagirdləri arasında olimpiadanın Respublika turunda təmsil etmişdi... Vaqif haqqında danışarkən İlqar müəllim böyük fəxr hissi ilə “o uşaq sanki anadan tarixçi kimi doğulmuşdu” deyir... Vaqifin anası deyirmiş ki, İlqar müəllim tarixi Vaqifə elə sevdirmişdi ki, o, axşam yatanda da tarix kitablarını balıncın yanına qoyub yatırdı.Yeri gəlmişkən, V.Abbasov hazırda Bakının Əmircan qəsəbəsində sayılıb-seçilən tarix müəllimi kimi tanınır.

2011-ci ildə respublikada müəllimlər imtahan verməklə iş yerlərini dəyişmək hüququ qazananda İlqar müəllim də bu fürsətdən istifadə edərək çoxdankı arzusuna - Bakıda işləmək arzusuna qovuşur. Belə ki, o, ən yüksək bal toplayaraq əvvəlcə Binəqədi rayonu Biləcəri qəsəbəsindəki 301 nömrəli tam orta məktəbdə dörd il işləyir. 2015-ci ildə isə iş yerini dəyişmək üçün yenidən imtahan verərək bu dəfə Bakı şəhəri üzrə ən yüksək bal toplayaraq Nərimanov rayonundakı MLK-ya keçir. Hazırda orada tarix müəllimi işləyən İlqar Abdullayev hələ Salyan rayonunda fəaliyyət göstərərkən “Baş müəllim”, “Metodist müəllim”, 1992 və 1998-ci illərdə “İlin ən yaxşı müəllimi” adını almış, 2009-cu ildə isə cənab Prezident İlham Əliyevin sərəncamı ilə “Tərəqqi” medalı ilə təltif edilib.

2013-cü ildə “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi olmuş, 2015-ci ildə möhtərəm Prezidentimizin sərəncamı ilə “Əməkdar müəllim” fəxri adına layiq görülüb. 2016-cı ildə üzərində çoxdan işlədiyi “Orta əsrlərdə Azərbaycanın xarici ölkələrlə əlaqələri (folklor materialları əsasında)” mövzusunda dissertasiyanı müvəffəqiyyətlə müdafiə etmiş və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almışdır. Dissertasiya mövzusu ilə əlaqədar elmi əsərləri Ukrayna və Rusiyada çap olunub. İlqar müəllim üst-üstə bu vaxta qədər həm pedaqoji, həm də tarixi mövzularda keçirilən 23 Beynəlxalq konfransın iştirakçısı olub.

Respublika daxilində elmi əsərləri “Tarix problemləri”, “Bakı Universitetinin xəbərləri”, “Geostrategiya”, “Kurikulum”, “Təhsil”, “Tarix, ictimaiyyat, coğrafiya tədrisi” jurnallarında, habelə “Azərbaycan”, “Azərbaycan müəllimi”, “Respublika”, “Təhsil problemləri”, “Bakı təhsili”, “Palitra”, “Paralel”, “Lider” və s. qəzetlərdə 100-dən çox tarix, təhsil, iqtisadiyyat, ekologiya və s. mövzularda məqalələri dərc edilib.

2019-cu ildə Təhsil İnstitutunun qrifi ilə “İKT-dən istifadənin tarix dərslərində səmərəliliyin artırılmasındakı rolu”, “Ümumtəhsil məktəblərində tarixin digər fənlərlə əlaqəli tədrisi təcrübəsindən” adlı kitabı isə Təhsil Nazirliyinin qrifi ilə çap edilmişdir. 2021-ci ildə AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Şurasının qərarı ilə İlqar müəlimin “Orta əsrlərdə Azərbaycanın xarici ölkələrlə əlaqələri (folklor materialları əsasında)” adlı monoqrafiyası çapa məsləhət görülmüşdür.

Daim öz üzərində işləyən, mətbuatı bir gün də olsun diqqətdən kənarda qoymayan İlqar Abdullayev 2017-ci ildə Təhsil Nazirliyi, “Azərbaycan müəllimi” qəzetinin və Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə keçirilən “Ən yaxşı yazı”, 2018-ci ildə isə Təhsil Nazirliyi, “Azərbaycan müəllimi” və “Bank of Baku”nun birgə keçirdikləri “Azərbaycan Xalq Cümhuriyyəti və təhsil” mövzusunda yazı müsabiqələrinin qalibi olmuşdur.

2019-cu ildə Təhsil Nazirliyi və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin “Uşaq və gənclərin azərbaycançılıq ruhunda tərbiyəsi” mövzusunda müsabiqə - konfransın da qaliblərindən olmuşdur.

2021-2022-ci tədris ilindən İlqar Abdullayev BDU-nun tarix fakültəsinin “Azərbaycan tarixi” kafedrasının doktoranturasına daxil olmaqla həmin kafedrada saat hesabı dərs deməyə başlamışdır. Kafedra rəhbərliyi onu keçmiş tələbələri kimi yaxşı tanıdığından elə birinci ildən tarix fakültəsinin ikinci kursunda həm mühazirə, həm də seminar aparmağı ona etibar etmişdir. Fərəhləndirici haldır ki, İlqar müəllim ona bəslənilən etimadı tam doğruldaraq həm tələbələrin, həm kafedra, həm də fakültə rəhbərliyinin böyük hörmət və ehtiramını qazanmışdır.

2022-ci ilin aprelində Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurası İctimai Elmlər üzrə Problem Şurasının qərarı ilə BDU-nun qiyabi doktorantı İlqar Abdullayevin Vətən tarixi ixtisasında tarix elmləri doktoru adını almaq üçün “Azərbaycan SSR-də sənaye, nəqliyyat, kommunikasiya və rabitənin inkişaf tarixi (1969-1982-ci illər)” mövzusu təsdiqlənmişdir.

İlqar müəllim görəcəyi işlər haqqında elə həvəs, elə şövqlə danışdı ki, düzü məndə onun yaxın gələcəkdə istəyinə, arzusuna qovuşacağına qətiyyən şübhə qalmadı.

...Daha nə deyə bilərəm ki? Onsuz da hər şey aydındır. Bircə onu deyərdim ki, görəcəyiniz işlərdə biz də Sizə uğurlar arzulayırıq, İlqar müəllim!

**Niyazi RƏHİMOV**

# Dünya çempionatından 2 medal




24-28 avqust 2022-ci il tarixlərində Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində cüdo idman növü üzrə yeniyetmələr arasında Dünya çempionatı keçirilib.

Çempionatda Azərbaycan milli komandası 9 nəfər idmançı ilə təmsil olunub.

Azərbaycan milli komandasının tərkibində yarışa qatılan “Təhsil” Respublika İdman Mərkəzinin 10 nömrəli uşaq-gənclər idman məktəbinin idmançısı Şahin Oruczadə (55 kq) gümüş, 13 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin idmançısı Nizami İmranov (60 kq) bürünc medal qazanıb.

Qeyd edək ki, komanda yarışında Azərbaycan milli komandası 8 nəfər idmançı ilə təmsil olunub ki, onlardan dörd nəfər 13 nömrəli ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin idmançıları Fidan Əlizadə (-63 kq), Nizami İmranov (-60 kq), Əli Hacızadə (-60 kq), Ramazan Əhmədov (+81 kq) və bir nəfər 10 nömrəli uşaq-gənclər idman məktəbinin idmançısı Şahin Oruczadə (-60 kq) olmuşdur.

Qalib idmançıları təbrik edir, onlara yeni uğurlar diləyirik.


## “AZƏRBAYCAN MÜƏLLİMİ”

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Yasamal rayonu,
Mətbuat prospekti 23 L, 5-ci mərtəbə

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 7701 **Sifariş** 2503

**Məsul növbətçi:** O.Mustafayev


# Etibarsız sayılır

**Azərbaycan Beynəlxalq Universiteti** tərəfindən 2002-ci ildə Rəfiyev Eldar Sabir oğluna verilmiş A-116491 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 245 nömrəli tam orta məktəbi 05.07.2021-ci ildə bitirmiş Zamanova Məryəm-Fatimə Rüfət qızına verilmiş E-375426 tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbi 27.06.1998-ci ildə bitirmiş Vəliyeva Vüsalə Qədir qızına verilmiş 136912 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Göygöl rayon** Quşqara kənd tam orta məktəbin IX sinfini 2015-ci ildə bitirmiş Vəliyev Zabit Surəddin oğluna verilmiş A-594770 nömrəli ümumi orta təhsil haqqında attestat, 2017-ci ildə verilmiş E-056949 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ç.İldırım adına Azərbaycan Politexnik İnstitutu** tərəfindən 1989-cu ildə Şərifova Xatirə Ələddin qızına verilmiş ПВ-010467 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 26 nömrəli tam orta məktəbi 14.06.2004-cü ildə bitirmiş Əliyeva Ülkər Qasım qızına verilmiş B-015789 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 221 nömrəli tam orta məktəbi 12.07.2015-ci ildə bitirmiş Axundov Zaur Çingiz oğluna verilmiş A-416244 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** “Erudit” tam orta məktəbi 04.07.2021-ci ildə bitirmiş Hüseynov Riyad Yaşaroviçə verilmiş E-373231 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Astanlı kənd tam orta məktəbi 2015-ci ildə bitirmiş Salmanov Seymur Nizami oğluna verilmiş A-452864 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Sarov kənd tam orta məktəbin IX sinfini 1995-ci ildə bitirmiş Nuruyeva (Əhmədova) Adilə Fərrux qızına verilmiş 000695 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 298 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Hüseynov Vüsal İbrahim oğluna verilmiş B-186415 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 54 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Vəliyev Mübariz Nizami oğluna 2014-cü ildə verilmiş B-286395 nömrəli tam orta təhsil haqqında dublikat attestat itdiyi üçün etibarsız sayılır.

**“Azərbaycan Sumqayıt Pedaqoji Özəl Kollec”** tərəfindən 2004-cü ildə Nəsirova Yeganə Kamil qızına verilmiş BB-II-003936 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Qafqaz Universiteti** (Bakı Mühəndislik Universiteti) tərəfindən 2005-ci ildə Kərimov Emin Vidadi oğluna verilmiş B-023594 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dəniz Balıq Sənayesi Texnikumu** tərəfindən 1999-cu ildə Məmmədov Rövşən Saadət oğluna verilmiş AB-II-033765 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Novruzov qardaşları adına** 36 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Qasımzadə Rəqsanə Akif qızına verilmiş E-365610 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağsu rayon** Növcü kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Həsənli Sabir Sahib oğluna verilmiş A-573773 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 56 nömrəli tam orta məktəbi 16.06.2015-ci ildə bitirmiş Məmmədzadə Ayxan Məsim oğluna verilmiş A-413483 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Hamarqışlaq kənd tam orta məktəbi 2008-ci ildə bitirmiş Muxtarov Xəyal Əli oğluna verilmiş B-518293 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə Dövlət Universiteti** tərəfindən 2019-cu ildə Həsənova Aydan Müşviq qızına verilmiş C-055678 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Hüseynbəyli kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Yusifova Mətanət Kərəm qızına verilmiş A-121793 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Yüngül Sənaye Texnikumu** tərəfindən 1986-cı ildə Abasova Səmayə Saməddin qızına verilmiş ЗТ-045873 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci** tərəfindən 2021-ci ildə Mehtiyeva Səadət Fərhad qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Bala Çaylı kənd tam orta məktəbi 2007-ci ildə bitirmiş Axundov Bəhram Əşrəf oğluna verilmiş 410090 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Milli Aviasiya Akademiyası** tərəfindən 2019-cu ildə Qasımov Mövsüm Cəmaləddin oğluna verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 64 nömrəli tam orta məktəbi 1978-ci ildə bitirmiş Məmmədova (Eyvazova) Olya Şamir qızına verilmiş A3-I-731594 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Əbdürəhmanov Abdulla Oruc oğluna verilmiş A-198699 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** I Sarıcalı kənd tam orta məktəbi 1999-cu ildə bitirmiş İsmayılova İlahə Rizvan qızına verilmiş A-352433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Babək rayon** Nehrəm kənd 2 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Bağırova (İsmayılova) Könül Abasqulu qızına verilmiş B-746129 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şirvan şəhər** 21 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Əliyev Rövşən Şəmsəddin oğluna verilmiş E-465500 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gədəbəy şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2000-ci ildə bitirmiş Abbasov Ruslan Qurban oğluna verilmiş 366178 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 20 nömrəli tam orta məktəb-liseyi 25.08.2020-ci ildə bitirmiş Müzəffərli Emil Fariz oğluna verilmiş E-281887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli şəhər** 1 nömrəli tam orta məktəbi 1979-cu ildə bitirmiş Ağayeva (Yusifova) İsmət Qədir qızına verilmiş B-926911 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Balakən rayon** Hənifə kənd tam orta məktəbi 2005-ci ildə bitirmiş Bayramov Orxan Cavad oğluna verilmiş A-199258 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**N.Tusi adına Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 1995-ci ildə Mehrəliyeva Sevil Alış qızına verilmiş AB-I-060476 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Şəki Pedaqoji Məktəbi** tərəfindən 1985-ci ildə Mehralıyeva Sücahət Alış qızına verilmiş ДТ-I-766378 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Xaçmaz rayon** Yalama kənd tam orta məktəbi 2019-cu ildə bitirmiş Qurbanov Qafur Təvəkkül oğluna verilmiş E-261166 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2013-cü ildə Quliyev Səbuhi Muxtar oğluna verilmiş B-265234 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 225 nömrəli tam orta məktəbin IX sinfini 25.06.2011-ci ildə bitirmiş İsmayılbəyli Fatma Fuad qızına verilmiş A-030665 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 207 nömrəli tam orta məktəbin IX sinfini 16.06.2004-cü ildə bitirmiş Zülfəliyev Rəşad Nazim oğluna verilmiş 011940 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 102 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Mehtiyeva Mədinə Ədalət qızına verilmiş B-486639 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı Tibb Məktəbi** (indiki 1 nömrəli Bakı Tibb Kolleci) tərəfindən 01.07.2004-cü ildə Kərimova Günay Sürəddin qızına verilmiş BB-II-006758 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Tovuz rayon** Düz Cırdaxan kənd R.İsmayılov adına tam orta məktəbi 2005-ci ildə bitirmiş Bağırova Təranə Cəvahirəddin qızına verilmiş 208033 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** Qaradağ rayon Səngaçal qəsəbə 222 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Məmmədova Xalidə Vaqif qızına verilmiş A-658849 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Lənkəran şəhər** 7 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş İbadov İqbal Nizami oğluna verilmiş A-168920 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Neftçala rayon** Bankə qəsəbə 1 nömrəli tam orta məktəbi 2013-cü ildə bitirmiş Babayev İlkin Rauf oğluna verilmiş A-222618 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Laçın rayon** 6 nömrəli tam orta məktəbi 13.07.2019-cu ildə bitirmiş Əzimova Şəms Rahib qızına verilmiş E-257731 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 4 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş Cəbiyev Elvin Bahar oğluna verilmiş A-726825 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şabran şəhər** 4 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Sadıqova Turan Əfqan qızına verilmiş B-470679 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki Tibb Məktəbi** tərəfindən 1997-ci ildə Musayeva Ceyran İsmayıl qızına verilmiş AB-II-017370 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** nəzdində Rabitə və Nəqliyyat Kolleci tərəfindən 2021-ci ildə Gülməmmədli Ülkər Muğum qızına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 3 nömrəli tam orta məktəbi 2021-ci ildə bitirmiş Mənsimov Toğrul Qəhrəman oğluna verilmiş E-409887 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 2 nömrəli tam orta məktəbi 2007-ci ildə bitirmiş Rüstəmova Şəfa Elmuraz qızına verilmiş B-419903 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 18 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Nəcəfova Səbinə Tofiq qızına verilmiş A-131959 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad rayon** Privolnoye kənd 2 nömrəli tam orta məktəbin IX sinfini 2007-ci ildə bitirmiş Süleymanova Vüsalə Baxtıcamal qızına verilmiş 537542 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhəri** H.Mahmudbəyov adına 2 nömrəli Texniki Humanitar Liseyi 1991-ci ildə bitirmiş Rəhimova Gülnaz Xasay qızına verilmiş A-072332 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Fövqəladə Hallar Nazirliyinin Akademiyası** tərəfindən 2015-ci ildə Minazov Ruslan Albertoviçə verilmiş A-054506 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Dənizçilik Akademiyasının nəzdində Azərbaycan Dənizçilik Kolleci** tərəfindən 2017-ci ildə Nəsirov Zahid Əlməmməd oğluna verilmiş 105k-1765 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 53 nömrəli tam orta məktəbin IX sinfini 2018-ci ildə bitirmiş Quliyeva Ləman Natiq qızına verilmiş C-181677 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə və 2020-ci ildə verilmiş E-201642 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Zaqatala rayon** Danaçı kənd 2 nömrəli tam orta məktəbi 1997-ci ildə bitirmiş Babayeva Arzu İlyas qızına verilmiş A-191908 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**2 nömrəli Gəncə Peşə Liseyi** tərəfindən 30.06.2007-ci ildə Kazımova Günel Rahil qızına verilmiş BB-029002 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 202 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Aslanlı Şəhriyar Rafael oğluna verilmiş B-173913 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sabirabad rayon** 2 nömrəli Cavad kənd tam orta məktəbi 2016-cı ildə bitirmiş Kərimov Səbuhi Fikrət oğluna verilmiş A-571742 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

“Azərbaycan müəllimi” qəzetinin kollektivi ADPU-nun İbtidai təhsil fakültəsinin dekanı, professor Fərrux Rüstəmova anası

**ŞÖVKƏT MƏHƏMMƏDƏLİ QIZI RÜSTƏMOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tədris Resursları Mərkəzinin əməkdaşları Əsgər Quliyev və İsmayıl Sadıqov Azərbaycan Dövlət Pedaqoji Universitetinin professoru Fərrux Rüstəmova anası

**ŞÖVKƏT MƏHƏMMƏDƏLİ QIZININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Faiq Şahbazlı və Şakir Cəfərov professor Həbib Zərbəliyevə qardaşı

**MƏNƏFAĞA ZƏRBƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

# Yeni Dövlət Proqramının İLKLƏRİ

## Xaricdə təhsil Azərbaycan gənclərinə hərtərəfli imkanlar yaradır

Bu gənclər xaricdə təhsil alacaqlar. Söhbət "Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı" çərçivəsində 2022-2023-cü tədris ilində xaricdə təhsil almaq hüququ qazanan ilklərimizdən gedir. Təqaüd qazanan tələbələrimiz dünyanın ən nüfuzlu ali təhsil müəssisələrində bakalavriat və magistratura səviyyələrində təhsil almaq imkanı qazanıblar. Onlara bu şansı dövlət başçısı İlham Əliyevin müvafiq sərəncamı ilə təsdiq olunmuş adıçəkilən Dövlət Proqramı yaradır. Dövlət Proqramını ölkə Prezidentinin gənclərə göstərdiyi xüsusi diqqətinin növbəti təzahürü kimi qiymətləndirən həmsöhbətimiz olan tələbələr təəssüratlarını "Azərbaycan müəllimi" qəzeti ilə bölüşüblər.


Nicat Osmanlı


Məhsəti Piriyeva


Toğrul Əlibəyov


Əsmər Kərimli


Nicat İsaxanlı

### "Azərbaycanın ilk onlayn universitetinin qurucularından olmaq istəyirəm"

*Nicat Osmanlı:*

- "Queen Mary University of London" ali təhsil müəssisəsində Maliyyə və mühasibatlıq ixtisası üzrə magistraturada təhsilimi davam etdirəcəyəm. Xaricdə təhsillə bağlı artıq müəyyən təcrübəm var. Belə ki, mən bakalavriatura təhsilimi Hökumətlərarası Təqaüd Proqramları (HTP) çərçivəsində Macarıstanın Budapeşt şəhərində almışam.

Adımı qəbul olunanlar siyahısında görəndə təbii ki, sevindim. Mənim üçün Dövlət Proqramına qəbul olmaq böyük məsuliyyətdir. Bütün gözləntiləri doğrultmaq və təhsilimə ayrılan investisiyanı düzgün şəkildə qaytarmaq üçün bacarıqlı və peşəkar mütəxəssis kimi Vətənimə dönmək istəyirəm.

Avropa mədəniyyəti və düşüncə tərzi ilə artıq tanışam. Düşünürəm ki, İngiltərə yeni dünyaya daha yaxındır və mənim kritik və biznesyönümlü düşüncə tərzinə yiyələnməyimə böyük təsir göstərəcək.

Dövlət Proqramı mənə London kimi bahalı şəhərdə yaşamağıma, təhsil xərclərini düşünmədən dünya səviyyəli təhsil almağıma və ölkəyə geri qayıtdıqda iş dünyasında daha reputasiyalı kadr olmağıma şərait yaradacaq.

Yaxın gələcək üçün hədəflərim praktiki və akademik biliklərimi təkmilləşdirməkdir. Uzun dövrdə isə Azərbaycanın ilk onlayn universitetinin qurucularından olmaq istəyirəm.

### "Olimpiadalarda əldə etdiyim uğurlar Sinqapurda təhsil almağımı əlçatan etdi"

*Məhsəti Piriyeva:*

- Elm və Təhsil Nazirliyinin birbaşa tabeliyindəki Gəncə şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyi xüsusi nailiyyətlərlə başa vuraraq qızıl nişanla təltif olunmuşam. Məktəbdə oxuduğum illərdə respublika və beynəlxalq olimpiadalarda qızıl, gümüş və bürünc medallar qazanmışam. Məhz bu bilik yarışlarında uğur qazandıqdan sonra qərara gəldim ki, ali təhsilimi xaricdə alım. Sağ olsun dövlətimiz ki, mənə bu arzumu reallaşdırmağa imkan yaratdı. Bakalavriat səviyyəsi üzrə müvafiq seçim qaydalarına aid meyarlara uyğun olaraq Dövlət Proqramına qəbul olundum. Seçimim Sinqapur Nanyanq Texnologiyalar Universitetində Kimya mühəndisliyi ixtisası oldu. Dövlət Proqramı təqaüdçüsü olacağıma əmin idim. Belə ki, qaydalar açıqlandıqda bakalavriat səviyyəsi üzrə ayrılan yerlərdə beynəlxalq olimpiadada medal qazanmış şagirdlərə üstünlük veriləcəyi qeyd olunmuşdu. Və bu üstünlük mənə qəbul şansımın daha çox olduğunu göstərirdi. Xaricdə ali təhsil almaq arzuma çatdığım üçün sevinirəm. Bilirsiniz ki, xarici ölkələrdəki nüfuzlu universitetlərin bir çoxunda illik təhsil haqqı yüksək olur və bu təqaüdü qazanmağım mənə Sinqapurda təhsil almağımı əlçatan etdi.

Bu Proqramın mənim kimi bir çox gəncin xarici ölkələrin yüksək təhsili ilə seçilən ali məktəblərində keyfiyyətli təhsil almaq arzusunun gerçəkləşməsində əvəzsiz rolu var.

### "Proqram gənclərin üzünə xəyal etdikləri universitetlərin qapılarını açır"

*Toğrul Əlibəyov:*

- Belçikanın "KU Leuven" Universitetinin bakalavriat səviyyəsi üzrə Mühəndislik texnologiyaları ixtisasında təhsil alacağam. Xaricdə təhsil almaq istəyimin arxasında seçdiyim mühəndislik texnologiyaları ixtisasını dünya standartlarına uyğun tədris edən universitetdə öyrənməkdir. Xaricdə təhsil peşəkar mühəndis olmağımla yanaşı, yeni dostlar qazanmağıma, əlaqələrimin genişlənməsinə də fürsət yaradacaq.

Dövlət Proqramı mənə maddi problemləri fikirləşmədən dərslərimə fokuslanmağa imkan verəcək. Eyni zamanda mənim üzərimə gələcəkdə Azərbaycana qayıdıb öyrəndiyim bilikləri, qazanacağım bacarıqları tətbiq etmək kimi mühüm bir vəzifə qoyur. Ən əsası, bu proqram gənclərin üzünə xəyal etdikləri universitetlərin qapılarını açır. Xaricdə təhsil almaq gənclərin böyük əksəriyyətinin arzusudur, amma reallıq budur ki, ailələrin heç də hamısının maddi durumları bu arzunu reallaşdırmağa imkan vermir. Bu baxımdan, Dövlət Proqramı həmin gənclər üçün böyük şansdır.

### "İctimai səhiyyə ilə bağlı xaricdə təhsil almaq əsas hədəfim idi"

*Əsmər Kərimli:*

- London Kral Kollecinə İctimai səhiyyə ixtisası üzrə magistraturaya qəbul olunmuşam. Bu sahədə çalışdığım illər ərzində işimlə əlaqədar ünsiyyətdə olduğum müxtəlif beynəlxalq ekspertlərlə etdiyim fikir mübadilələri, təmsil etdikləri ölkələrindəki səhiyyə sahəsində tətbiq olunan islahatlar, son illərin ən aktual ictimai səhiyyə problemi olan COVID-19 pandemiyası ictimai səhiyyə ilə bağlı xaricdə təhsil almağı əsas hədəfimə çevirdi.

Etiraf edim ki, ictimai səhiyyə sahəsində olan iş təcrübəmə və akademik göstəricilərimə dayanaraq, elə ilk gündən təqaüdü qazanacağıma çox ümidli idim. Adımı təqaüdü qazananlar siyahısında görəndə hədsiz sevinc hissi yaşadım və birinci olaraq bu xoş xəbəri mənə böyük dəstək olan ailəm və dostlarımla paylaşdım.

Xaricdə təhsil almaq mənə nə verəcək? Son illər COVID-19 pandemiyası bir daha sübut etdi ki, ictimai səhiyyə təşəbbüslərini uğurla idarə etmək böyük bilik və təcrübə tələb edir. Xaricdə ictimai səhiyyə sahəsində təhsil almaq mənə nəzəri biliklərlə yanaşı, praktik olaraq digər ölkələrdə ictimai səhiyyə idarəsinin necə işlədiyini görmək imkanı yaradacaq. Dövlət Proqramı çərçivəsində ictimai səhiyyə sahəsində alacağım magistratura təhsilinin bu istiqamətdə daha da təkmilləşərək mütəxəssis olmağımda böyük rol oynayacağından əminəm.

Əsas hədəfim ictimai səhiyyə mütəxəssisi olaraq əhaliyə keyfiyyətli səhiyyə xidmətlərinin əlçatanlığının təmin edilməsi istiqamətində işimi davam etdirmək və bu sahədə ölkəmizdə tədqiqatlar aparmaqdır.

Dövlət Proqramı bütün təbəqədən olan gənclərin xaricdə təhsilinə geniş imkanlar yaradır.

### "Bir çox akademik təşkilatlara rəhbərlik edən Edinburqu təhsil yoluma əlavə etdim"

*Nicat İsaxanlı:*

- Böyük Britaniyanın Edinburq Universitetində Maliyyə ixtisası üzrə magistraturada təhsil alacağam. Bir çox yoldaşlarım xarici ölkələrin ən nüfuzlu universitetlərində təhsillərini artıq başa vuraraq geri qayıdıblar və aldıqları təhsil sayəsində karyeralarında yüksəliblər. Bakı Mühəndislik Universitetində bakalavriat təhsili almış bir gənc olaraq xaricdə alacağım təhsilimin də özünəməxsus tərəflərini onunla birləşdirərək gələcək iş həyatıma tətbiq etmək istəyirəm.

Təqaüdünü qazandığım Edinburq Universiteti "QS Dünya Universitetlərinin Reytinq" sıralamasında 15, "Times Higher Education" reytinqində isə 29-cu yerdədir. Şübhəsiz ki, digər reytinqli universitetlərə də müraciət etdiyimdə akademik nəticələrimə güvənirdim. Onların arasında isə seçim etmək çətin idi, sonda bir çox akademik təşkilatlara rəhbərlik edən Edinburqu təhsil yoluma əlavə etdim. Mənim üçün ən önəmli məsələ, təhsil alacağım universitetdə öz ixtisasım üzrə yeni bilgilər əldə etmək, müəyyən təcrübə toplamaqdır. Böyük Britaniyadakı təhsilim zamanı öyrənəcəyim nəzəri və praktiki bilikləri ölkəmə qayıtdıqdan sonra tətbiq etməyi planlaşdırıram. Ümid edirəm ki, bu biliklərimlə Azərbaycanın müxtəlif sahələrində yeniliklər edə, digər gənclərə də dəstək ola bilərəm. Gələcək hədəflərimi özüm üçün artıq müəyyənləşdirmişəm.

Elm və təhsil naziri Emin Əmrullayevin biz gənclərlə görüşü çox xoş oldu. Nazir sualı olan hər bir gənci dinlədi, bizlərə tövsiyələrini, xaricdə təhsillə bağlı öz şəxsi təcrübəsindən çıxış edərək faydalı məsləhətlər verdi.

Xarici ölkələrin nüfuzlu ali məktəblərində təhsil almağımıza belə imkan və şərait yaradıldığına görə ölkə rəhbərliyinə təşəkkür edirəm.

**Samirə KƏRİMOVA**

## Elm və təhsil bir-birini tamamlayacaq



Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında elm və təhsil sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 28 iyul 2022-ci il tarixli Fərmanı ölkənin elm və təhsil nümayəndələri tərəfindən rəğbətlə qarşılanmaqdadır. Sənəd istər yeni dünyanın çağırışları, istərsə də ölkənin yeni sosial-iqtisadi reallıqları kontekstində strateji əhəmiyyətə malik elm və təhsilin müasir tələblər səviyyəsində hərtərəfli inkişafı baxımından olduqca mühüm əhəmiyyətə malikdir.

Fərmana əsasən Azərbaycan Respublikasının Təhsil Nazirliyinin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi adlandırılması, həmçinin elm sahəsində dövlət siyasətinin və tənzimlənmənin həyata keçirilməsi, elmi müəssisə, təşkilatların elmi fəaliyyətinin əlaqələndirilməsi, istiqamətləndirilməsi ilə bağlı səlahiyyətlərin Nazirliyə həvalə edilməsi və digər vacib müddəalar elm və təhsilin inteqrasiyasına, son nəticədə isə hər iki sahənin inkişafına hədəflənib.

Fərmanla bağlı fikirlərini bölüşən ADA Universitetinin Beynəlxalq və ictimai münasibətlər fakültəsinin dekanı, dosent, siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Vəliyev bu dəyişikliklərin, atılan islahatyönümlü addımların ilk növbədə Azərbaycanda elm və təhsilin bir-birini tamamlayacağını düşünür: "Dünyanın bir çox ölkələrində, istər Almaniya olsun, istər Amerikada elm və təhsil eyni sahədirlər. Bunun səbəbi odur ki, elm institutları çalışırlar ki, təhsil versinlər. Biz isə sovet dövründən qalan sistemdə elmi sırf kənara qoymuşduq. Elm və təhsil eyni səviyyədə inkişaf etmirdi. Məhz bu Fərman elmi təhsilə qaytarır və ümid edirik ki, elmin təhsillə olan harmoniyası bütövlükdə təhsilin inkişafına və keyfiyyətinin artırılmasında mühüm rol oynayacaqdır".

Anar müəllimin sözlərinə görə, sənəddə adları qeyd olunan elmi müəssisələrin Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin tabeliyinə verilməsi ölkəmizdə fəaliyyət göstərən universitetlərin elmi potensialının artmasına imkan və şərait yaradacaq. Universitetlər elmi müəssisələr ilə əlaqəli şəkildə fəaliyyət göstərərək tələbələr yetişdirəcəklər. Belə bir əməkdaşlıq həmçinin tələbələrin inkişafına və onların gələcək elmi işçi kimi formalaşmasına çox kömək edəcək: "Eyni zamanda deyə bilərəm ki, şəxsən özüm fikirlərimi, məqalələrimdəki ideyaların 90 faizini tələbələrimdən alıram. Bu, o deməkdir ki, elmi işçi həmişə tələbələrlə işləməli, daim ünsiyyətdə olmalıdır.

Fərman universitet tələbələrinin, dissertant və doktorantların bir sıra elmi müəssisələrin zəngin laboratoriyalarından istifadəsinin əlçatanlığını təmin etməklə bərabər, həmçinin elmi potensialdan düzgün və səmərəli şəkildə istifadəyə imkan verəcək. Düşünürəm ki, Fərman həmçinin tələbələrin elmə marağının artırılmasında, onlarda elmi tədqiqatçılıq bacarıqlarının formalaşmasında mühüm əhəmiyyətə malikdir. Elm sahəsində çalışanların tələbələrə daha da yaxınlaşması, onlarla quracaqları səmərəli əməkdaşlıq bütövlükdə Azərbaycanın elm və təhsilinə öz töhfəsini verəcəkdir".

**Samirə KƏRİMOVA**